*Global Spectrum of Research and Humanities*
*ISSN: 3007-9136*
*Vol. 3 No. 2 (2026): Summer*

# İkinci Dünya Müharibəsi Kontekstində Əhmədiyyə Cəbrayılovun "Armed Mişel" Kimliyi

## *The "Armed Michel" Identity of Ahmadia Jabrayilov in the Context of the Second World War*

**Mahsati Qasim qızı Əsgərova**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Dövlət Universiteti, Azərbaycan*
Email: mehsetiesgerova@ndu.edu.az
ORCID: https://orcid.org/0009-0006-0708-8772

**Qadir Haşim oğlu Məmmədzadə**
*Xarici dil müəllimliyi (fransız dili) ixtisası, I kurs magistrant*
*Naxçıvan Dövlət Universiteti, Xarici dillər fakültəsi, Azərbaycan*
ORCID: https://orcid.org/0009-0003-1052-4158

https://doi.org/10.69760/gsrh.0260302008

© **2026 Mahsati Qasim qızı Əsgərova, Qadir Haşim oğlu Məmmədzadə.** This is an open-access article published in *Global Spectrum of Research and Humanities (GSRH)*. Licensed under **Creative Commons Attribution 4.0 International (CC BY 4.0)** — free to share, adapt and use commercially, with attribution.
https://creativecommons.org/licenses/by/4.0/

---

### Xülasə

Məqalədə İkinci Dünya müharibəsi dövründə qeyri-adi taleyi və qəhrəmanlığı ilə seçilən azərbaycanlı döyüşçü Əhmədiyyə Cəbrayılovun həyatı və fəaliyyəti araşdırılır. Onun müharibə illərində əsir düşməsi, nasist düşərgəsindən qaçaraq Fransaya keçməsi və burada Fransız Müqavimət Hərəkatında "Armed Mişel" adı ilə fəal iştirak etməsi geniş şəkildə təsvir olunur. Məqalədə Cəbrayılovun müxtəlif gizli əməliyyatlarda iştirakı, düşmənə qarşı fəaliyyəti, insanların, xüsusilə uşaqların xilas edilməsində göstərdiyi şücaət faktlarla təqdim edilir. Eyni zamanda onun Fransa tərəfindən yüksək mükafatlara layiq görülməsi və müharibədən sonra Sovet İttifaqına qayıtdıqdan sonrakı çətin həyat mərhələsi də diqqətə çatdırılır. Tədqiqat nəticəsində Əhmədiyyə Cəbrayılovun yalnız milli deyil, beynəlxalq miqyasda tanınan bir qəhrəman olduğu və onun həyat yolunun vətənpərvərlik, iradə və insanlıq dəyərlərinin bariz nümunəsi kimi qiymətləndirildiyi göstərilir.

**Açar sözlər:** *Əhmədiyyə Cəbrayılov; İkinci Dünya müharibəsi; Fransız Müqavimət Hərəkatı; Armed Mişel; partizan hərəkatı; qəhrəmanlıq; vətənpərvərlik; Azərbaycan qəhrəmanları*

### Abstract

This article examines the life and activities of Ahmadia Jabrayilov, an Azerbaijani combatant distinguished by his extraordinary life trajectory and heroism during the Second World War. It provides a detailed account of his capture during the war, his escape from a Nazi camp, and his subsequent relocation to France, where he actively participated in the French Resistance under the alias "Armed Michel." The study highlights his involvement in various covert operations, his actions against enemy forces, and his bravery in rescuing civilians, particularly children, supported by factual evidence.

Furthermore, the article addresses the recognition he received from France through high state honours, as well as the difficult phase of his life after returning to the Soviet Union following the war. The findings demonstrate that Ahmadia Jabrayilov is not only a nationally significant figure but also an internationally recognised hero, whose life represents a vivid example of patriotism, resilience, and humanitarian values.

**Keywords:** *Ahmadia Jabrayilov; Second World War; French Resistance; Armed Michel; partisan movement; heroism; patriotism; Azerbaijani heroes*

---

## 1. Giriş

Tarix bəzən o qədər inanılmaz hekayələrlə dolu olur ki, onları eşidəndə qəlbin fəxarət hissi ilə dolur, düşünürsən ki, bu doğrudanmı baş verib, yoxsa bir əfsanədir? Xüsusilə də müharibə dövrləri belə sirli və qeyri-adi talelərlə zəngindir. İkinci Dünya müharibəsi isə bu baxımdan ən dramatik və ən çox qəhrəmanlıq hekayələri ilə yaddaşlara həkk olmuşdur. Bu müharibə zamanı milyonlarla insanın taleyi dəyişmiş, saysız-hesabsız qəhrəmanlıq hadisələri yaşanmışdır. Məhz belə mürəkkəb və ağır bir dövrdə adı tez-tez hallanan bir şəxs var — Əhmədiyyə Cəbrayılov.

O, bəzən sadə bir azərbaycanlı əsgər kimi təqdim olunur, bəzən isə Fransada nasistlərə qarşı mübarizə aparan cəsur partizan — "Armed Mişel" kimi tanınır. Onun haqqında yayılan məlumatlar o qədər qeyri-adidir ki, sanki bir insanın deyil, bir neçə fərqli qəhrəmanın həyat hekayəsi birləşdirilib. Alman zabiti kimi gizli fəaliyyət göstərməsi, düşmən sıralarına sızması, əsirləri azad etməsi kimi faktlar adi bir insan üçün demək olar ki, çox çətindir. Elə isə Ə. Cəbrayılovun fəaliyyəti mifləşdirilibmi? Bu sual tədqiqatımızın əsas məsələlərindən birini təşkil edir.

## 2. Əsas hissə

Əhmədiyyə Cəbrayılov 1920-ci ildə Azərbaycanın Şəki bölgəsində dünyaya gəlmişdir. Sadə kənd həyatında böyüyən bu gənc, minlərlə sovet vətəndaşı kimi müharibə başlayanda cəbhəyə yollanmışdır. Onun həyatı əvvəlcə adi bir əsgərin taleyindən fərqlənmirdi. Gənc Əhmədiyyə müharibə başlamazdan əvvəl hərbi xidmətə çağırılır; onu Nevinnomısk təyyarəçilik məktəbinə yollayırlar. Hərbi xidmətin bitməsinə az bir müddət qalmış İkinci Dünya müharibəsi başlayır. Cəbrayılovlar ailəsindən beş nəfər cəbhəyə yollanır.

1942-ci ildə Əhmədiyyənin həyatında həlledici dönüş baş verir. Döyüş zamanı yaralanaraq almanlara əsir düşməsi onun həyatını kökündən dəyişir. O dövrdə əsir düşmək demək olar ki, ölümə bərabər idi. Nasist düşərgələrində saxlanılan əsirlərin çoxu ağır şəraitə dözməyərək həyatını itirirdi. Məhz bu nöqtədən etibarən onun hekayəsi adi bir insanın taleyindən ayrılaraq inanılmaz bir istiqamət alır. Məlumatlara görə, o, əsir düşərgəsindən qaçmağa nail olur və Fransaya keçir. Burada o, Fransız müqavimət hərəkatına qoşulur və "Armed Mişel" adı ilə tanınmağa başlayır.

1943-cü ildə həbsxana komendantının qulluqçusu madam Jannanın və fransız vətənpərvərlərinin köməyi ilə almanların diqqətini yayındırmaq üçün tabutda gizlənmiş Əhmədiyyəni xilas edərək onun evindəki zirzəmiyə gətirirlər. Sağaldıqdan sonra Əhmədiyyə faşistlərdən qisas almaq üçün qəti qərara gəlir. Fransız dilini öyrənir; madam Jannanın sayəsində onun vətənpərvər dostları və partizan hərəkatı kapitanı Delplankın (ləqəbi "Düma") rəhbərlik etdiyi Tarn və Qaronnu departamentlərindəki 4-cü eskadronun üzvü olur.

Əhmədiyyə Cəbrayılovun bir neçə gizli fəaliyyət ləqəbi olmuşdur: "Xarqo", "Fraji", "Qoçaq", "Rus Armed", "Kuroji". İşğalçı alman hakimiyyət orqanları onun başına 10 min alman markası mükafat təyin etmişdilər. O, növbəti əməliyyatların birində 500 fransız uşağının, çoxlu yaşlı adamın Almaniyaya aparılmasının qarşısını almışdır. Bordo şəhərində Əhmədiyyə döyüş dostları ilə birlikdə cəsarətli əməliyyat apararaq hitlerçilərin qərargahını ələ keçirmişdir. Sabotaj əməliyyatlarında iştirak etmiş, bəzi şəhərlərdə alman idarəçiliyinə qarşı gizli fəaliyyət göstərmişdir.

Müharibə qələbə ilə başa çatdıqdan sonra Vətənə yola düşməzdən əvvəl Fransız Müqavimət hərəkatına başçılıq etmiş general Şarl De Qoll onu qəbul edərək əsgəri igidliyinə görə təşəkkür edib. General ona yüksək mükafat — hərbi paradlarda generallardan irəlidə getmək hüququ verən "Hərbi igidliyə görə" medalı, Fransanın fəxri vətəndaşı sənədi və həmin ölkədə nəqliyyatın bütün növlərindən pulsuz istifadə mandatını təqdim edib. Həmçinin faşizmə qarşı mübarizədə göstərdiyi igidliyə görə Fəxri Legion ordeninə, döyüşlərdə göstərdiyi şücaətə görə Hərbi Xaç ordeninə layiq görülüb, İkinci Dünya Müharibəsi medalını alıb. Fransa Kommunist Partiyasının baş katibi Moriz Torez göstərdiyi igidliyə görə Əhmədiyyə Cəbrayılova təşəkkür məktubu göndərib.

Lakin SSRİ-yə qayıtdıqdan sonra onun həyatı tamamilə fərqli istiqamət alıb. O, şübhə ilə qarşılanıb, təqiblərə məruz qalıb, uzun müddət sadə həyat sürüb, hətta çoban kimi işlədiyi məlumdur. Sonralar Fransanın prezidenti olan Şarl De Qoll 1966-cı ildə Sovet İttifaqına rəsmi səfəri ərəfəsində hakimiyyət orqanlarından xahiş edib ki, səfər proqramına öz döyüş yoldaşı, o zaman Şəki rayonunun Oxud kəndindəki N. Nərimanov adına kolxozda işləyən Əhmədiyyə Cəbrayılovla görüş daxil edilsin. Bu tarixi görüşdən sonra Əhmədiyyəyə münasibət dəyişir; o, Fransa ilə, döyüşçü dostları ilə əlaqələrini bərpa edir.

### 3. Əhmədiyyə Cəbrayılov haqqında ədəbi və sənədi miras

Əhmədiyyə Cəbrayılov haqqında bir çox sənədli film çəkilib. İlk çəkilmiş "Fransa qəhrəmanı" (1975) sənədli filmidir. Film onun döyüş yolunu əks etdirir; Fransa Müqavimət Hərəkatındakı fəaliyyəti və döyüş yoldaşları ilə görüşdüyü səhnələr də öz əksini tapmışdır. Digəri isə 2022-ci ildə çəkilən "O, Xarqo idi" adlı sənədli filmdir. Bu daha müasir və araşdırmalara əsaslanan bir filmdir. Rejissor Tahir Tahiroviç azərbaycanlı qəhrəmanın şöhrətinə kölgə salmaq istəyənlərə layiqli cavab vermişdir.

Fransada yaşayan azərbaycanlı yazıçı Şain Sinaria Əhmədiyyə Cəbrayılov haqqında "Bir ömür, iki tale" kitabını fransızca, daha sonra böyük marağa səbəb olduğunu görüb azərbaycanca da nəşr etdirmişdir. Müəllifin çoxillik araşdırmalarının nəticəsi olan kitab "Fransanın Milli Qəhrəmanı" adlandırılan "Xarqo" ləqəbli Əhmədiyyə Cəbrayılovun rəsmi bioqrafiyasıdır. O, Cəbrayılovun döyüş yolunu addım-addım izləmiş, döyüş yoldaşları ilə görüşmüş və kitabı ərsəyə gətirmişdir.

Müəllifin sözlərinə görə, Əhmədiyyə Cəbrayılov haqqında araşdırma edərkən bəlli olub ki, onunla bağlı bilinən bəzi məlumatlar əfsanədir. Məsələn, müəllif qeyd edir ki, onun Şarl de Qol ilə dostluğu olmayıb və 5-6 dil bilməsi də doğru deyil. Ola bilsin ki, 5-6 dil bilməyib, amma ən azı doğma dili ilə yanaşı rus dilini bilirmiş, müharibədə isə fransız dilini öyrənir. Şarl de Qol ilə dost yox, silahdaş olublar. Hər halda, almanların başına yüksək məbləğdə mükafat qoyduğu igid bir döyüşçü olan Ə. Cəbrayılov haqqında Şarl de Qol məlumatsız ola bilməzdi. Lakin müəllif həm də qeyd edir ki, Əhmədiyyənin həyatı onun haqqında uydurulan əfsanələrdən daha maraqlıdır.

Döyüş yoldaşı Rene Şambarın yazdığı məktublardan da onun cəsur bir partizan olduğunu öyrənmək olar. Azərbaycanlı qəhrəman haqqında Almaniyanın "freitag.de" və

"blogs.taz.de" portallarında gənc azərbaycanlı alim Asif Məsimovun müəllifi olduğu "İkinci Dünya müharibəsi zamanı müqavimət hərəkatında iştirak edən azərbaycanlı" sərlövhəli məqalə də dərc edilmişdir. V. Karpovun "Bonjour, camarades" adlı məqaləsi Fransanın "Études soviétiques" jurnalında dərc olunmuşdur; Braziliya Kommunist Partiyasının baş katibi Karlos Prestes bu məqaləni oxuduqdan sonra Əhmədiyyə Cəbrayılovla tanış olmaq məqsədilə Şəkiyə gəlmişdir. Türkiyədən Yakub Öztürk də Əhmədiyyə Cəbrayılov haqqında kitab yazmışdır. Həmin əsərdə onun qəhrəmanlığı xüsusi vurğulanır, Şarl de Qolla Tarbe dağında görüşü təsvir olunur, Xarqo ilə bağlı epizodlara da yer verilmişdir.

## 4. Nəticə

Təhlil göstərir ki, Əhmədiyyə Cəbrayılovun fəaliyyəti yalnız fərdi qəhrəmanlıq nümunəsi deyil, həm də İkinci Dünya müharibəsi dövründə beynəlxalq müqavimət hərəkatlarının kompleks strukturunun bir hissəsidir. Onun fəaliyyəti tarixi baxımdan əhəmiyyətli olmaqla yanaşı, gələcək tədqiqatlar üçün də aktualdır. Fransa Müqavimət hərəkatında döyüşmüş 50-yə yaxın azərbaycanlı olmuşdur, bəlkə də daha çox, lakin Fransanın Milli Qəhrəmanı olan yeganə azərbaycanlı Əhmədiyyə Cəbrayılovdur.

Nəticə etibarilə tarixə adını yazdırmağı bacaran Əhmədiyyə Cəbrayılov Armed Mişel kimi bir əfsanə, Əhmədiyyə Cəbrayılov kimi isə göstərdiyi cəsarətə, şücaətə görə Azərbaycan üçün qürur mənbəyi və fəxrdir. Əhmədiyyə Cəbrayılov öz şücaəti və fədakarlığı ilə təkcə Azərbaycanın deyil, bütün dünyanın yaddaşında iz qoymuş tarixi şəxsiyyətdir. Onun Fransa Müqavimət Hərəkatındakı fəaliyyəti insan iradəsinin, azadlıq sevgisinin və vətənpərvərliyin parlaq nümunəsidir. Bu cür qəhrəmanların həyatı gələcək nəsillər üçün həmişə ilham mənbəyi olaraq qalır.

Heç də təsadüfi deyil ki, qəhrəman atanın oğlu, Birinci Qarabağ müharibəsində şəhid olan Azərbaycanın Milli Qəhrəmanı Mikayıl Əhmədiyyə oğlu Cəbrayılov döyüşçü ruhunu məhz öz atasından almışdır. Beynəlxalq arenada tanınan azərbaycanlı qəhrəmanın döyüş səlnaməsi İkinci Qarabağ müharibəsində igid oğullarımıza örnək olmuşdur. Araşdırmalardan məlum oldu ki, indiyə qədər Əhmədiyyə Cəbrayılov haqqında heç bir bədii film çəkilməmişdir. Bizcə bu işin zamanı gəlmiş — hətta ötmüşdür.

### Declarations

**Funding:** This research received no external funding.

**Conflicts of Interest:** The authors declare no conflict of interest.

**Author Contributions:** Conceptualization: M.Q.Ə., Q.H.M.; Investigation: M.Q.Ə., Q.H.M.; Writing – original draft: Q.H.M.; Writing – review & editing: M.Q.Ə.

## Ədəbiyyat siyahısı / References

Əliyeva, Ə. (2020). Avropa (Fransa) Müqavimət hərəkatında azərbaycanlı döyüşçülərin rolu və yeri (Əhmədiyyə Cəbrayılova aid materiallar əsasında). Naxçıvan Müəllimlər İnstitutu. Elmi Əsərlər, (4), 117–120.

Əliyev, R. (2009). Azərbaycanın İkinci Dünya müharibəsi qəhrəmanları. Elm.

İlyasov, V. (2020, 19 avqust). "Xarqo" ləqəbli partizan. İki Sahil, (141), 20.

Qarayev, Z. (1998). Xarqo: Roman. Şirvannəşr.

Öztürk, Y. (2000). Fransa Milli Kahramanı Azerbaycanlı Türk Ahmediyye Cebrailov. Bakı.

Kaspi qəzeti. (2015). Əhmədiyyə Cəbrayılov haqqında material. https://anl.az/down/meqale/kaspi_az/2015/aprel/433192.pdf

Azertag. (2021). Almaniya mətbuatında Əhmədiyyə Cəbrayılov haqqında məqalə dərc edilib. https://azertag.az/xeber/almaniya_metbuatinda_ehmediyye_cebrayilov_haqqinda_meqale_derc_edilib-1594279

Azərbaycan Turizm və Təhlükəsizlik Komitəsi. (2021). Əhmədiyyə Cəbrayılov. https://web.archive.org/web/20210107072809/https://www.aztc.gov.az/az/posts/id:640

Received: 10 April 2026
Accepted: 12 May 2026
Published: 14 May 2026